# SmartPoint DMS

## Release Note 4.1

v. 2025.10

**Məxfilik bildirişi:** Bu sənəd məxfidir və kommersiya xarakterli məxfi məlumatları, həmçinin SMART business şirkətinin əqli mülkiyyətini ehtiva edir. Nə bu sənəd, nə də burada olan hər hansı məlumat SMART business şirkətinin əvvəlcədən yazılı razılığı olmadan heç bir halda çoxaldıla və ya açıqlana bilməz. Nəzərə alın ki, bu sənədin və buradakı məlumatın açıqlanması, surətinin çıxarılması, yayılması və ya istifadəsi qəti qadağandır.

# Mündəricat

1. Giriş hissəsi ............................................................................................................................ 3
2. SmartPoint DMS təkmilləşdirilməsi ........................................................................................ 4

# 1. Giriş hissəsi

Bu sənəd SmartPoint DMS həllinin növbəti müntəzəm təkmilləşdirmə 2025.10 buraxılışına daxil olan funksionallıq təkmilləşdirmələri və dəyişikliklərini təsvir edir. Təkmilləşdirməyə 01.07.25 tarixdən 30.09.25 tarixə qədər olan dövr üçün funksionallıq dəyişiklikləri daxildir.

## Məsuliyyətin məhdudlaşdırılması

Bu sənədin məzmunu yalnız məlumat məqsədləri üçün nəzərdə tutulub və dərc olunduğu tarixdə SMART business şirkətinin mövzu ilə bağlı nəzər nöqtəsini əks etdirir. Bu sənəd və onun məzmunu SMART business şirkətinin öhdəliyi deyil və belə qiymətləndirilməməlidir. SMART business bu sənəddə olan hər hansı məlumatın dəqiqliyinə zəmanət vermir.

## Müəllif hüquqları haqqında xəbərdarlıq

Müəllif hüququ ilə bağlı bütün qanunlara riayət etmək istifadəçinin məsuliyyətidir. Bu sənədin məzmunu SMART business şirkətinin müəllif hüquqlarıdır. Müəlliflik hüququnun sahibi kimi SMART business şirkətinin hüquqlarını məhdudlaşdırmadan, bu sənədin heç bir hissəsi çoxaldıla, saxlanıla və ya axtarış sisteminə daxil edilə, yaxud hər hansı formada və ya hər hansı üsulla (elektron, mexaniki, surətçıxarma, qeyd, və ya başqa şəkildə) və ya hər hansı məqsədlə, yaxud SMART business şirkətinin açıq rəsmi yazılı icazəsi olmadan hər hansı digər işə və ya nəşrə daxil edilə bilməz. Bu sənədin çıxarışlarını şəxsi istifadəniz üçün köçürə bilərsiniz.

SMART business bu sənədin mövzusu ilə bağlı patentlərə, patent müraciətlərinə, ticarət nişanlarına, müəllif hüquqlarına və ya digər əqli mülkiyyət hüquqlarına malik ola bilər. SMART business şirkətinin hər hansı ayrıca yazılı lisenziya müqaviləsində açıq şəkildə nəzərdə tutulmuş hallar istisna olmaqla, bu sənədin təqdim edilməsi Sizə bu patentlərə, ticarət nişanlarına, müəllif hüquqlarına və ya digər əqli mülkiyyətə heç bir lisenziya vermir.

© 2025 SMART business. All rights reserved. The names of actual companies and products mentioned herein may be the trademarks of their respective owners.

## 2. SmartPoint DMS təkmilləşdirilməsi

Təkmilləşdirmə qeydləri buraxılışına aşağıdakı təkmilləşdirmələr, yeni funksional imkanlar və mövcud funksionallığın düzəlişləri daxildir:

| | Məzmun | Modul | Dəyişiklik növü |
|---|---|---|---|
| 1 | **Sənədin kateqoriyasına əsasən fərdi sənəd kartı yaratmaq imkanı həyata keçirilib.**<br><br>**Necə işləyir:**<br>Sənədin kateqoriyasından asılı olaraq müxtəlif xanalar dəsti ilə fərqli kartlar yaratmağa imkan verir.<br><br>**Necə faydalı olacaq:**<br>Hər bir sənəd kateqoriyasının xüsusiyyətlərinə uyğun olaraq kartın strukturunu tənzimləməyə imkan verir. Bu da sistemdən istifadənin rahatlığını artırır və məlumatların düzgün doldurulmasını təmin edir. | Sistem funksionallığı | Yeni funksionallıq |
| 2 | **Birdən çox sənədi eyni vaxtda təsdiqləmək imkanı əlavə olunub.**<br><br>**Necə işləyir:**<br>İstifadəçi siyahıdan bir neçə sənəd seçə bilər və onları tək bir hərəkətlə tədiq edə bilər.<br><br>**Necə faydalı olacaq:**<br>İstifadəçilərin vaxtına qənaət edir və çoxlu sayda sənədlərin təsdiqi prosesini optimallaşdırır. | SPDMS Razılaşmalar | Yeni funksionallıq |
| 3 | **Eyni anda bir neçə sənədin rədd olunması imkanı əlavə olunub**.<br><br>**Necə işləyir:**<br>İstifadəçi siyahıdan bir neçə sənəd seçərək onları bir kliklə rədd edə bilər.<br><br>**Necə faydalı olacaq:**<br>Təsdiqləmə prosesi zamanı sənədlərin kütləvi şəkildə işlənməsinin rahatlığını təkmilləşdirir. | SPDMS Razılaşmalar | Yeni funksionallıq |
| 4 | **Fayl məzmunu üzrə (Word, Excel, PDF) axtarış genişləndirilib.**<br><br>**Necə işləyir:** | Sistem funksionallığı | Yeni funksionallıq |

| | | | |
|---|---|---|---|
| | Sistem sənədlərin mətn məzmununu indeksləşdirir və fayllar daxilində axtarış aparmağa imkan verir.<br>**<u>Necə faydalı olacaq:</u>**<br>Böyük həcmdə sənədlər arasında lazım olan məlumatın axtarış effektivliyini artırır. | | |
| 5 | **Seçilmiş mərhələyə təsdiqin geri qaytarılması imkanı həyata keçirilib.**<br><br>**<u>Necə işləyir:</u>**<br>Təsdiq prosesi zamanı istifadəçi sənədi yenidən baxış üçün əvvəlki mərhələyə qaytara bilər.<br><br>**<u>Necə faydalı olacaq:</u>**<br>Təsdiqləmə prosesini çevik şəkildə idarə etməyə və yeni marşrut yaratmadan səhvləri düzəltməyə imkan verir. | SPDMS<br>Razılaşmalar | Yeni funksionallıq |
| 6 | **Təsdiqləmə marşrutunun mərhələləri üçün xatırlatmalar və ya bildiriş parametrlərini təyin etmək imkanı həyata keçirilib.**<br><br>**<u>Necə işləyir:</u>**<br>Proses iştirakçılarına göndəriləcək xatırlatma və ya bildirişlərin parametrlərini sazlamaq imkanı verir.<br><br>**<u>Necə faydalı olacaq:</u>**<br>Təsdiq prosesi çərçivəsində tədbirlərin yerinə yetirilməsi zərurəti barədə iştirakçılara vaxtında məlumat verir, tapşırıqların icrasına nəzarəti və intizamı artırır. | Sistem funksionallığı | Yeni funksionallıq |
| 7 | **"Müəssisə daxili sənədləşmə" modulu yenilənib.**<br><br>**<u>Necə işləyir:</u>**<br>Müəssisə daxili sənədlərin yaradılması, təsdiq edilməsi və tam həyat dövrü boyunca — yaradılmasından arxivləşdirilməsinə qədər — vahid sistemdə saxlanılmasını təmin edir.<br><br>**<u>Necə faydalı olacaq:</u>**<br>Müəssisə daxili sənədlərin mərkəzləşdirilmiş şəkildə saxlanılmasını və onların təsdiqi prosesinin şəffaflığını təmin edir. | Müəssisə daxili sənədləşmə | Təkmilləşdirilmiş funksionallıq |
| 8 | **"Müəssisədən kənar sənədləşmə (daxil olan və göndərilən sənədlər)" modulu yenilənib.**<br><br>**<u>Necə işləyir:</u>**<br>Həm gələn, həm də göndərilən sənədlər daxil olmaqla, xarici yazışmaları qeydiyyata almağa, təsdiqləməyə və | Müəssisədən kənar sənədləşmə | Təkmilləşdirilmiş funksionallıq |

| | | | |
|---|---|---|---|
| | izləməyə imkan verir — bu zaman kontragentlər və təsdiq marşrutları da nəzərə alınır.<br><br>**Necə faydalı olacaq:**<br>Xarici tərəfdaşlarla sənəd mübadiləsinə nəzarəti təmin edir. | | |
| 9 | **"Ödəniş müraciətləri" modulu yenilənib**<br><br>**Necə işləyir:**<br>Ödəniş müraciətlərini avtomatik təsdiq marşrutu və icra statuslarına nəzarət ilə yaratmağa və təsdiq etməyə imkan verir.<br><br>**Necə faydalı olacaq:**<br>Maliyyə sənədlərinin təsdiqi prosesini optimallaşdırır, xərclərin şəffaflığını artırır və maliyyə qərarlarının qəbulu prosesini sürətləndirir. | Ödəniş müraciətləri | Təkmilləşdirilmiş funksionallıq |